Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 48 (1176) 8 mart - 9 mart 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# QAX: İNKİŞAFIN TƏNTƏNƏSİ

> **"... Bu gün Azərbaycan regionun güclü dövlətinə çevrilməklə özü öz həyatını, öz siyasətini, öz yolunu müəyyənləşdirib. Bizim güclü ordumuz və həm də möhkəm, inkişaf edən iqtisadiyyatımız var. Biz məhsul idxal edən ölkədən məhsul ixrac edən ölkəyə çevrilirik. Bu, bizim uğurumuzdur!"**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

(əvvəli ötən saylarımızda

**Rayon Statistika İdarəsi tərəfindən verilmiş məlumatlara əsasən 2015-ci ildə rayon üzrə məhsulun ümumi buraxılışı 91 milyon 770 min manat təşkil etmişdir ki, bu da 2014-cü illə müqayisədə 10 milyon 848 min manat çoxdur. 2014-cü illə müqayisədə əsas sahələr üzrə məhsul istehsalı sənayedə 7 milyon 72 min manat və ya əvvəlki illə müqayisədə 2 milyon 103 min manat, kənd təsərrüfatında 42 milyon 799 min manat və ya əvvəlki illə müqayisədə 5 milyon 648 min manat, tikintidə 11 milyon 845 min manat və ya əvvəlki illə müqayisədə 544 min manat, ticarətdə 26 milyon 928 min manat, əvvəlki illə müqayisədə 2 milyon 313 min manat, nəqliyyatda 2 milyon 172 min manat, əvvəlki illə müqayisədə 98 min manat, informasiya və rabitədə 954 min manat, əvvəlki illə müqayisədə 144 min manat çox olmuşdur.**

Hesabat dövründə 339 yeni iş yeri açılmış, rayon üzrə orta əməkhaqqı 233,3 manat olmuşdur.

### *Sahibkarlığın inkişafında mühüm amillər*

Sahibkarlığın inkişaf etdirilməsi, hüquqi bazanın möhkəmləndirilməsi və dövlət tərəfindən hərtərəfli dəstəyin verilməsi nəticəsində son illər rayonda bu sahədə mühüm irəliləyişlər əldə edilmişdir. Belə ki, 2003-cü ildə rayonda iqtisadiyyatın bütün sahələri üzrə kiçik sahibkarlıq obyektlərinin sayı 130 olmuşdursa, bu göstərici 01 yanvar 2016-cı il tarixə 1784 vahid artaraq 1914-ə çatmışdır. Sahibkarlıq subyektlərində çalışan muzdlu işçilərin sayı 2003-cü ildə 245 nəfər olmuşdursa, bu göstərici 01 yanvar 2016-cı il tarixə 2907 nəfər artaraq 3152 nəfərə çatmışdır.

Göründüyü kimi 2015-ci ildə iqtisadiyyatın bütün sahələri üzrə istər sahibkarlıq subyektlərinin sayında, istərsə də sahibkarlıq subyektlərində çalışan muzdlu işçilərin sayında 2003-cü illə müqayisədə göstəricilər 13 dəfədən çox artmışdır. Bütün bunlar sahibkarlığın inkişafı sahəsində uğurlu dövlət siyasətinin həyata keçirilməsi sayəsində əldə edilmişdir.

Rayonda sahibkarlığın inkişafı və əhalinin işgüzar fəaliyyətinin artırılması və yeni iş yerlərinin yaradılması məqsədi ilə Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2015-ci ildə 24 sahibkara 1 milyon 298 min manat dövlətin güzəştli kreditləri verilmişdir. Verilmiş kreditlərin hesabına 61 yeni iş yerinin yaradılması mümkün olmuşdur.

### *Təhsil...*

Rayon Təhsil şöbəsi 2015-ci ildə təhsilin inkişaf etdirilməsi və keyfiyyətinin yaxşılaşdırılması istiqamətində işini davam etdirmişdir. Belə ki, Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən rayonun ümumtəhsil məktəblərində mərkəzləşmiş qaydada keçirilən test-buraxılış imtahanlarında IX siniflər üzrə 661, XI siniflər üzrə 506 nəfər şagird iştirak etmişdir. IX siniflər üzrə müvəffəqiyyət 79,09%, XI siniflər üzrə isə 73% olmuşdur. Bu il məktəbi bitirən 506 nəfər XI sinif şagirdindən biri məktəbi qızıl medalla bitirmişdir.

2014-2015-ci tədris ilində rayonun tam orta məktəblərinin Azərbaycan və rus bölmələrini bitirmiş 438 nəfər məzundan 276 nəfəri ali məktəblərə qəbul imtahanlarında iştirak etmişdir. Qəbulun nəticələrinə görə 175 nəfər tələbə adını qazanmışdır. Onlardan 36 nəfəri 500-700 bal arası, o cümlədən 11 nəfəri 600-dən çox bal toplamışdır.

Rayonun ümumtəhsil məktəblərinin müəllim və şagirdləri rayon, zona, respublika və beynəlxalq səviyyəli müsabiqələrdə uğurlu nəticələr əldə etmişlər. Fənn olimpiadalarının rayon turunun qalibi olmuş 5 nəfər şagird respublika turunda iştirak etmiş, kimya fənni üzrə şəhər 4 nömrəli tam orta məktəbin X sinif şagirdi Hacızadə Ayşən II yeri tutaraq, gümüş medalla təltif olunmuşdur.

Hesabat dövründə Ümummilli lider Heydər Əliyevin zəngin irsinin və müasir Azərbaycan tarixinin ümumtəhsil məktəblərində daha mükəmməl öyrənilməsi üçün Heydər Əliyev Mərkəzində XI sinif şagirdlərinə "Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu və memarıdır" və "Ümummilli Lider Heydər Əliyevin ideyaları müasir Azərbaycanın sosial-iqtisadi inkişafının təminatçısıdır" mövzuları üzrə Təhsil Şöbəsi tərəfindən hazırlanmış xüsusi qrafik əsasında tarix dərsləri tədris olunmuşdur. Rayonun 30 tam orta məktəbinin XI siniflərinin 506 nəfər şagirdini əhatə edən dərslər yüksək mütəşəkkilliklə davam etdirilmişdir. İrsin mükəmməl və hərtərəfli öyrədilməsinə Mərkəzin yüksək texnoloji imkanları, dahi şəxsiyyətin şərəfli həyat yolunu əks etdirən eksponatlar, fotolar geniş imkan yaratmışdır.



### *Səhiyyə...*

2015-ci ildə rayon Mərkəzi Xəstəxanasının 117 nəfər həkim və 407 nəfər orta tibb işçisi əhaliyə xidmət göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən ötən il fevralın 2-dən may ayının 1-dək 18 yaşdan yuxarı 40812 nəfər əhalinin 38410 nəfərinin tibbi müayinədən keçirilməsi təmin edilmişdir. Tibbi müayinədən keçmiş insanlardan 2348 nəfəri ambulator, 117 nəfəri stasionar müalicəyə cəlb olunmuş, 24 nəfəri isə Bakı şəhərinə müalicəyə göndərilmişdir. Ötən ilin sentyabr ayında Rayon Mərkəzi Xəstəxanasında talassemiya və hemofiliyalı xəstəliklərdən əziyyət çəkən insanlara kömək məqsədi ilə Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun nəzdindəki Mərkəzi Qan Bankının səyyar həkim briqadası tərəfindən könüllü qanvermə aksiyası keçirilmiş, bu aksiyada iştirak edən 115 nəfər könüllü qan vermişdir.

### *... Mədəniyyət*

Rayon Mədəniyyət və Turizm şöbəsi Bakı şəhəri Dənizkənarı Milli Parkda keçirilən "Novruz" şənliklərində, eləcə də Şəki şəhərində keçirilən "Şirniyyat" festivalında rayonu layiqincə təmsil etmişdir. Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Prezident kuboku" uğrunda keçirilən milli atüstü oyunlar festivalında rayonun komandası da iştirak etmiş və "Papaq" milli oyununda II yeri tutmuşdur. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirinin 23 yanvar 2015-ci il tarixli 31 nömrəli əmrinə əsasən rayon "Azərbaycanın Milli Mətbəx Paytaxtı" elan edilmiş, həmçinin aprel ayında keçirilən müsabiqədə Azərbaycanın mədəni irsi, abidələrinin mühafizəsi, bərpası və istifadəsində xidmətlərə görə "Milli irs-2015" mükafatına layiq görülmüşdür.

**Rayonun "Azərbaycanın Milli Mətbəx Paytaxtı" elan olunması ilə əlaqədar tədbirlər planı hazırlanmış və bu plana əsasən Qum kəndində "Tut bayramı", İlisu kəndində isə "Qax mətbəxi-İlisu yeməkləri" adlı tədbir və İçəribazarda respublika əhəmiyyətli "Ulu dad" festivalı keçirilmişdir. Festivalda plov, şirniyyat, dolma, xəmir yeməklərinin nümunələri və arıçılıq məhsulları yerli kulinarlarla yanaşı, Balakən, Zaqatala, Şəki, Oğuz, Qəbələ və İsmayıllı rayonlarının təmsilçiləri tərəfindən nümayiş etdirmişlər.**

***Məzahir ƏHMƏDOĞLU***




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ